# *Soltan Hacıbəyovun II simfoniyası*

**Nəcəfzadə Nigar (Üzeyir Hacıbəyli adına BMA)**
**Fakültə: Tarix-nəzəriyyə**
**İxtisas: Musiqi tarixi**
**Kurs: II**
**Elmi rəhbər: dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru İnna Pazıçeva**

1939-45-ci illər II Dünya müharibəsinin insanlarda yaratdığı vətənpərvərlik hissi bütün yaradıcılıq sahələrində olduğu kimi, musiqidə də öz əksini tapmışdır. Dərin fəlsəfi məzmuna malik olan və ümumbəşəri əhəmiyyət daşıyan mövzuların musiqidə daha ifadəli təcəssümü üçün irihəcmli əsərlərin yaranması zəruri idi. Həmin illərdə yaranan və böyük inkişaf yolu keçən belə iri həcmli kompozisiya – simfonik silsilə oldu. Azərbaycan musiqi sənətində simfonik musiqi görkəmli yerlərdən birini tutur. Azərbaycan simfonik musiqisinin inkişafında ötən əsrin 40-cı illəri ən məhsuldar, əhəmiyyətli və yüksəliş dövrü olmuşdur. Bu dövrün bəstəkarları həyatın mürəkkəbliliyini çatdırmaq üçün simfoniya janrına müraciət etmişlər. Böyük Vətən müharibəsindən sonrakı illərdə daim inkişaf edib irəliləyən ölkəmizin ictimai-siyasi və mədəni həyatında elə bir hadisə olmamışdır ki, Azərbaycan bəstəkarları ona öz münasibətini bildirməsin, ölkəmizin tarixi keçmişi və müasirliyi əhatə edən, sülhə, əmin-amanlığa səsləyən simfonik əsərlər yazmasın.

Məlumdur ki, Azərbaycan bəstəkarlarının simfonik musiqisi milli musiqişünaslığımızın aparıcı mövzularından biridir. Burada ciddi elmi tədqiqatları, müxtəlif dissertasiyaları, müxtəlif xarakterli kitab və məqalələri göstərmək olar. Bir sözlə, musiqişünaslar bu gün də simfonik musiqi sahəsini böyük əhəmiyyət kəsb edən zəngin tədqiqat mənbəyi olaraq araşdırmaqda davam edirlər. Nəticədə bu, neçə-neçə dəyərli elmi işlərin yazılmasına səbəb olur. XX əsrin Azərbaycan simfonik musiqisində maraqlı nümunələr çoxdur. Onla-

rın sırasında görkəmli Azərbaycan bəstəkarı, SSRİ xalq artisti, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, professor Soltan İsmayıl oğlu Hacıbəyovun (1919-1974) II simfoniyası layiqli yerlərdən birini tutur. Odur ki, biz təqdim etdiyimiz magistr dissertasiyasını bəstəkarın simfonik yaradıcılığına və onun II simfoniyasına həsr etmişik.

Magistr dissertasiyası üzərində iş əsasən iki istiqamətdə aparılır:

İşin I Fəslində Böyük Vətən müharibəsi mövzusunun simfonik musiqidə təzahürü adlanır və burada Azərbaycan simfonik musiqisi nəzərdən keçirilir. II Fəsildə isə S.Hacıbəyovun simfonik orkestr üçün II simfoniyasının musiqili-dramaturji və bədii-obrazlı təhlili verilir.

Böyük Vətən müharibəsindən sonrakı illərdə Azərbaycan simfonik musiqisinin araşdırılmasında, simfonik janrın tarixi mənzərəsinin yaradılmasında bir sıra mənbələrin nəzərdən keçirilməsi, o cümlədən professor S.Qasımovanın tədqiqat işləri faydalı olmuşdur. Həmçinin S.Hacıbəyovun simfonik yaradıcılığı musiqişünaslıq elmində tədqiqatçılar E.Abbasova, A.Tağızadənin elmi əsərlərində ətraflı şəkildə nəzərdən keçirilmişdir.

Eyni zamanda biz S.Hacıbəyovun simfonik yaradıcılığının Sovet dövrünə təsadüf etməsi ilə bağlı olaraq sovet simfonizmini də nəzərdən keçirməyi məqsədəuyğun hesab etmişik. Bu məqsədlə biz həm azərbaycan (Əliyeva N.), həm də rus (B.Asafyev, M.Aranovski, Y.Xolopov) tədqiqatçı-alimlərinin elmi əsərlərinə istinad etmişik.

Tədqiqatın materialını S.Hacıbəyovun simfonik orkestr üçün II simfoniyasının musiqisi təşkil edir. II simfoniya 1968-ci ildə Bakıda "Azərbaycan dövlət nəşriyyatı" tərəfindən çap olunmuş partitura əsasında təhlil edilir. Aparılan təhlillər zamanı not misallarına istinad olunur və magistr dissertasiyasının sonundakı Əlavələrdə təqdim olunur. Qeyd edək ki, simfoniyanın partiturasını biz Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasından əldə etmişik. Eyni zamanda qeyd edək ki, S.Hacıbəyovun yaradıcılığı haqqında geniş iş materiallarından mənbələrə istinad etmişik. Bu mənbələri toplamış və təhlilə cəlb etmişik.